# Sahibkarlığın inkişafı daim diqqət mərkəzində olmalıdır

**Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycanda çox güclü sahibkarlar sinfi yarandığını diqqətə çatdıran dövlətimizin başçısı bu vacib məqamı xüsusi qeyd etmişdir ki, sahibkarlığın inkişafına mane olanlar dövlətə xəyanət edirlər**



**Dövlətimizin başçısı İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ötən dövrdə əldə olunan sosial-iqtisadi göstəricilərə diqqət yönəldərək bildirmişdir ki, görülən işlər, qazanılan uğurlar qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olmağa stimul verir. Bu əminlik də ifadə edilmişdir ki, sahibkarlara kömək davam etdiriləcək, quruculuq-abadlıq, infrastruktur layihələrinin icrası təmin ediləcək. Təbii ki, bu məqsədlərə yüksək səviyyədə nail olmaq üçün yerlərdə dövlət qurumlarının və biznes strukturlarının nümayəndələrinin birgə çalışması vacib amillərdəndir.**

Ölkə iqtisadiyyatının şaxələndirilməsi üçün görülən tədbirlər davamlılığı ilə diqqət çəkir. Ümumi daxili məhsulda özəl sektorun payının 85 faiz təşkil etməsi deyilənlərin təsdiqidir. İqtisadiyyatın inkişafında neft-qaz amilinin rolunu daim önə çəkən dövlətimizin başçısı İlham Əliyev bu sahədə əldə olunan gəlirlərin düzgün idarə olunması sayəsində şaxələndirmənin vacibliyini prioritet məsələ kimi qarşıya qoyur. Qeyri-neft sektorunun inkişafına göstərilən diqqətin təsdiqi kimi bir rəqəmi də qeyd edək ki, cari ilin ötən dövründə bu sahədə artım 9,2 faiz təşkil etmişdir. Qeyri-neft sektoru iş yerlərinin yaradılmasında həlledici rol oynayır, həm iqtisadi, həm də sosial inkişafa müsbət təsir göstərir. Ölkə Prezidenti bu reallığı da diqqətə çatdırır ki, bir neçə il bundan əvvəl irəli sürdüyümüz sənayeləşmə təşəbbüsləri artıq gözəl nəticələr verməkdədir. Cari ilin ötən dövründə sənaye istehsalı 4 faiz artıb. Ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi 180 milyard dollara çatıb. Əgər 2004-cü ildə valyuta ehtiyatları 1,8 milyard dollar idisə, bu gün 50 milyard dollardan çoxdur. İqtisadi imkanların genişlənməsi hər sahə üzrə konkret addımların sürətlənməsinə öz müsbət təsirini göstərir.

Kadr hazırlığını iqtisadi inkişafın səviyyəsinə uyğunlaşdırmaq həlli vacib məsələ kimi qarşıya qoyulur. Bu istiqamətdə mühüm tədbirlərin həyata keçirilməsində də ölkəmizin malik olduğu təbii resurslardan səmərəli istifadənin rolu inkaredilməzdir. Hazırda aktivlərinin həcmi 36 milyard dollardan artıq olan Dövlət Neft Fondunun maliyyələşdirdiyi əsas istiqamətlərdən biri məhz gənclərin xarici ölkələrdə təhsil almalarıdır. Daim bu fikir vurğulanır ki, intellektual səviyyənin aşağı olduğu ölkə dayanıqlı inkişafa nail ola bilməz. XXI əsrin əsas çağırışlarından biri yeni texnologiyaların öyrənilməsi və tətbiqi, kadr hazırlığının iqtisadi tərəqqiyə uyğunlaşdırılmasıdır.

İqtisadiyyatın aynası dövlət büdcəsidir. Son on bir ildə büdcə xərcləri 20 dəfədən çox artıb. Büdcəmiz investisiya və sosial yönümlüdür. 2003-cü ilin dövlət büdcəsinin cəmi 1,2 milyard dollar olduğunu yada salsaq, bu gün həmin rəqəmin 25 milyard dollardan çox olması onu göstərir ki, son on bir ildə bu istiqamətdə xeyli işlər görülüb. Büdcənin artımı infrastruktur layihələrinin icrasını, həmçinin sosial məsələlərin həllini daha da sürətləndirir. "Büdcə artdıqca məsuliyyət də artmalıdır" söyləyən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, dövlət tərəfindən qoyulacaq investisiyaların şəffaflığı tam şəkildə təmin edilməlidir.

Son illərdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində biri-birindən əhəmiyyətli addımlar atılmaqdadır. "Biz sosialyönümlü dövlətin yaradılması istiqamətində çox böyük uğurlara nail olmuşuq" söyləyən cənab İlham Əliyev bildirir ki, cari ildə də bütün işlərimiz sistemli şəkildə, proqramlar əsasında aparılacaq. Əsaslı iqtisadi islahatların aparılması güclü sosial siyasətlə tamamlanır. Bazar iqtisadiyyatı prinsiplərinə xüsusi önəm verilən ölkəmizdə aztəminatlı ailələrin sosial müdafiəsinin etibarlı təminatı üçün atılan addımlar insanların yaşayış tərzini daha da yaxşılaşdırır. Ünvanlı sosial yardım proqramı icra edilir. Sosial ədalət prinsipinə sadiqliyin göstəricisi olaraq əmək haqqı islahatları davamlı proses kimi daim diqqətdə saxlanılır.

Son 11 ildə bir milyon 300 mindən artıq yeni iş yeri yaradılıb. Cari ilin ötən dövründə 60 minə yaxın yeni iş yeri yaradılıb ki, onlardan 48 mini daimi iş yeridir. Ölkəmizdə işsizlik 5 faizdir. Yoxsulluq da 5 faiz səviyyəsindədir.

Nazirlər Kabinetinin iclasında ölkəmizin iqtisadi uğurlarını önə çəkən Prezident İlham Əliyev bir daha vurğuladı ki, sosial ədalət prinsipləri Azərbaycanda əsas rol oynayır, bazar iqtisadiyyatı prinsipləri inkişafımız üçün əsas alətdir. 24 ilə yaxın müstəqillik dövründə ölkəmiz nəinki keçid mərhələsini başa vurub, həmçinin planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçərək, aparılan islahatlar neft-qaz amilindən iqtisadi inkişafın və vətəndaşların gələcək asılılığını maksimum dərəcədə azaltmışdır. Həyata keçirilən siyasətin təməlində insan amili dayanır.

Ölkəmizin malik olduğu təbii resurslardan səmərəli istifadəsi, təşəbbüsçüsü olduğu layihələri gerçəkliyə çevirməsi iqtisadi və maliyyə imkanlarını artırır, nəinki bölgədə, dünya miqyasında güclü, qüdrətli dövlət kimi nüfuz qazandırır. Dövlətimizin başçısı bu reallığı da hər zaman qeyd edir ki, Azərbaycan tərəfindən irəli sürülmüş layihələrin heç biri iflasa uğramayıb. Hər biri gözəl nəticələrlə sonuclanıb. Bu uğuru şərtləndirən digər amil birliyin, həmrəyliyin mövcudluğudur. Vaxtilə çoxlarına əfsanə kimi görünən BTC və BTƏ neft-qaz kəmərləri Azərbaycan, Türkiyə və Gürcüstan dövlətlərinin birgə səyləri əsasında reallığa çevrildi. Bu gün adı çəkilən layihələr nəinki iştirakçı, dünya dövlətlərinin davamlı iqtisadi inkişafının təmin olunmasında əsas rol oynayır. Bu fikir beynəlxalq maliyyə qurumlarının hesabatlarında da qeyd olunur ki, Azərbaycan BTC və BTƏ neft-qaz kəmərlərinin istifadəyə verilməsi ilə regional iqtisadi inkişafın aparıcı qüvvəsinə və dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevrilib. Bu inam ifadə olunur ki, növbəti layihələrin uğurlu icrası Azərbaycanın bu rolunu daha da artıracaq. Artıq çoxtərəfli əməkdaşlığın inkişafına xidmət edən addım kimi dəyərləndirilən Cənub Qaz Dəhlizinin təməli qoyulub.

Əhəmiyyətinə görə BTC və BTƏ neft-qaz kəmərlərindən geri qalmayan, yaxın zamanlarda istifadəsi nəzərdə tutulan Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin gerçəkləşməsi istiqamətində atılan addımlar da Azərbaycan dövlətinin siyasi iradəsinin nəticəsidir. "Dəmir İpək yolu" adlandırılan bu layihə iştirakçı ölkələrin iqtisadiyyatının şaxələndirilməsinə və inkişafına təkan verəcək, eləcə də Avropa ilə Asiyanı bir-birinə daha da yaxınlaşdıracaq.

Sözsüz ki, bu uğurların təməlində gələcəyə hesablanmış siyasət dayanır. Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə təsdiqlənən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası ölkəmizin əldə etdiyi uğurların növbəti illərdə daha da artmasını, qeyri-neft sektoru hesabına ümumi daxili məhsulun 2 dəfə artırılmasını, xalqın sosial rifahının yaxşılaşmasını təmin edəcək, Azərbaycan daha güclü, qüdrətli, inkişaf etmiş dövlətə çevriləcək. Qarşıya qoyulan hədəflərə çatmaq üçün bütün imkanlar mövcuddur. Bu fikir Prezident İlham Əliyev tərəfindən daim önə çəkilir ki, inkişaf etmiş ölkələri fərqləndirən cəhətlərdən biri iqtisadiyyatın inkişafının əsas göstəricilərindən olan ümumi daxili məhsulun formalaşmasında kiçik və orta sahibkarlığın xüsusi yerinin olmasıdır. Sahibkarlara dəstəyin davamlı olduğunu qeyd edən ölkə Prezidenti bu günə qədər qeyd olunan istiqamətdə görülən işlərə də daim diqqət yönəldir. Regionların malik olduğu potensialdan istifadə etmək məqsədilə imzalanan Dövlət Proqramları və onların uğurlu icrası qeyri-neft sektorunun inkişafına geniş yol açıb. Hazırda "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)", 2004-2008 və 2009-2013-cü illər üçün regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının davamı olaraq "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "Bakı şəhərinin qəsəbələrinin 2006-2007 və 2011-2013-cü illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı""nın davamı olaraq "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və digər biri-birindən əhəmiyyətli sənədlər uğurla icra edilir. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, əgər inkişaf etmiş ölkələr sırasında addımlamağı əsas hədəf seçmişiksə, əldə olunan sosial-iqtisadi göstəricilər qarşıya qoyulan məqsədə yüksək səviyyədə çatacağımıza böyük əsas verir. Yeni mərhələnin əsas məqsədi iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə və dünya iqtisadi sisteminə səmərəli inteqrasiyasına nail olmaqla uzunmüddətli perspektivdə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdir. Təsadüfi deyil ki, dünyanın ən mötəbər iqtisadi qurumu olan Davos Ümumdünya İqtisadi Forumu rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı 38-ci yerə layiq görmüşdür. Prezident İlham Əliyevin imzaladığı fərmanlarda, təsdiq etdiyi iqtisadi siyasət sənədlərində bu məqsədin gerçəkləşməsi üçün yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyənləşdirilib. Ölkənin malik olduğu iqtisadi potensialın gücləndirilməsi, qeyri-neft sektorunun inkişaf etdirilməsi, hər bir regionun malik olduğu potensialdan tam və səmərəli istifadə olunması, yeni iş yerlərinin açılmasına şərait yaradılması, sahibkarlığın inkişaf etdirilməsi, sosial xidmətlərin həcminin, keyfiyyətinin və ünvanlılığının əhəmiyyətli dərəcədə artırılması, yoxsulluğun azaldılması mühüm prioritetlərdir. Böyük əhəmiyyət kəsb edən infrastruktur layihələrinin həyata keçirilməsi, antiinhisar tədbirlərinin gücləndirilməsi, "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı"nın təsdiqlənməsi, "Dövlət orqanlarının elektron xidmətlər göstərilməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında", eyni zamanda "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" fərmanlar bazar iqtisadiyyatının əsas aparıcı qüvvəsi olan sahibkarlığın inkşafına geniş yol açan mühüm addımlardır.

Nazirlər Kabinetinin iclasında ölkə Prezidenti İlham Əliyev əsas diqqəti sahibkarlığın inkişafı istiqamətində atılan addımların uğurlu nəticələrinə yönəldərək bu fikri xüsusi qeyd etdi ki, Azərbaycanda çox güclü sahibkarlar sinfi yaranıb. Sahibkarlığın inkişafı daim diqqət mərkəzində olmalıdır. Ölkəmiz sahibkarlıq hesabına inkişaf edəcək. Varlanmaq üçün sahibkarlığı boğanlar dövlətə xəyanət edirlər.

Ötən dövrün uğurları fonunda qarşıdakı vəzifələri açıqlayan dövlətimizin başçısı İlham Əliyev birgə səylərin göstərilməsinin vacibliyini bildirdi.

**Yeganə Əliyeva,**
***"İki sahil"***